# "Ölmüş" yetim"

**Romandan parça**



*Yazıçı, Qarabağ müharibəsi veteranı, Əməkdar mədəniyyət işçisi, Tahir Kazımovun yenicə bitirdiyi, iri həcmli, iki cildlik "Ölmüş" yetim nağılvari romanından bəzi hissələrini Siz oxuculara təqdim edirik.*

- Başqa cürə ola da bilməz, misal var: "ot kökü üstə bitər", ikimiz də ata genindən bəhrələnmişik... Kənd camaat məni ölmüş sayıb, yad adam, naziri deyirəm, atamın xeyirxahlığına, neçə illərdən sonra oğluna, mənə xeyirxahlıq edir, ata qayğısı göstərir, bu söhbətdə inanıram ki, atamın ruhu yanımda olub, yardımcı olub... amma mən gərək məmur qadınla elə kobud, iradla danışmayaydım, onun qayğısı sayəsində nazirlə görüşdüm, iş aldım, özü də birdən-birə idarə rəisi... yetim, sevin də!.. canımın canı, sevincimdən boğuluram... halsızlaşıram... mənə dövlət işi veriblər, məni gənc mütəxəssis sayıblar, atama görə də olsa məni qiymətləndiriblər, - Allahverən qalstukunu açıb səliqə ilə qatladı, pencəyinin cibinə qoydu, pencəyi də soyunub sol qolunun üstündə səliqəyə saldı.

- Gedək bax o böyük parka, kölgəli bir skameykada mürgülə, sevinc həyəcanın keçsin, özünə gələndən sonra yataqxanaya gedərik, - daxili mən səmimi təklif etdi.

- Çamadanlarımı aparmayım?

- Yox... əvvəlcə yataqxanaya gedək, öyrənək, komendanta, dığaya tapşırılmışıq, ya yox, öyrənək, bizə otaq verilibsə, deməli, nazirin göstərişi: yataqxana, elə bizə iş verilməsi də yuxu olmadığını qətiləşdirək, onsuz da axşam hamballıq etməliyik...

- Ağıllı təklifdir... mən də fikirləşirəm ki, sabah birinci iş günümdə gümrah olmalıyam, gecə saat on qatarını yola salandan sonra çamadanlarımı da götürüb gedərəm yataqxanaya.

- Bir əlavəm də var... birinci əmək haqqını alana kimi hər axşam saat on qatarını yola salana kimi işlə, yat, dincəl ki, səhər işdə gümrah olasan, başın yaxşı məntiqləsin, altıncı günü isə bütün, istəsək iyirmi dörd saatı gecə saat ona kimi işləyərik, səhərisi iş günü olduğu üçün tez yatarsan, hələ bir hamamlanarsan da.

- Sənə alqış, qayğılıqla mənə, xırdalasan da, yaxşı iş planı qurdun.

- Bəs necə bilmişdin, axı, mən sənəm, - daxili mən Allahverəni qıdıqladı, - burdan parka gir, bir az mürgülə...

- Bilirsən ki, parkda, kölgəli skameykada başımı arxaya söykəyib təxminən qırx dəqiqə daxili gərginliyimi, həyəcanımı söndürdüm, sonra da daxili, mənəvi yüngüllüklə avtobusa minib yataqxanaya getdim...

- Bu ayrı bir epizoddur... danışarsan... xəbərin var, maşınının kondisionerinin istiliyi bu şaxtalı dağ havasında bizə mürgü gətirir?

- Özü də xoşhallıqla... pəncərəni açım, kondisioneri söndürüm, maşının mühərriki işləsin ki, kreslolar soyumasın... hə... mürgüləyək?

- Mürgüləyək, - Allahverən xüsusi düymə ilə maşının oturacağını arxaya apardı, kürək kreslosunu da əyib başını söykədi, yerini rahatlayıb göz işlədikcə aşağıdakı meşəni süzüb gözlərini yumdu... mürgülədi...

***

- Mürgülədin, yüngülləşdin? - daxili mən Allahverəndən soruşdu.

- İnanırsan, elə şirin yatmışdım ki? - Allahverən əlini çallaşmış seyrək saçında gəzdirib daradı.

- İnanıram... hava təmiz, düşüncə aydın, işdən, qalmaqaldan uzaq.

- Fikrin nədir, neyləyək?

- Düşünürəm ki, yataqxana epizodunu da yadımıza salaq, mənən bir az toxlaşaq, sonra bu kəndlərə kəşfiyyata gedək, yəni, başqa şey haqqında düşünmədən ev sahibləri ilə söhbət edək, sövdələşək.

- Sən uzaqgörənlə razılaşıram.

- Allahverən, sən olmasan, mən kiməm ki, nə barədəsə nəsə məntiqləyəm... komendantla görüşündən danış, - Allahverənin daxili məni onu dümsüklədi. Allahverən maşının kreslolarını əvvəlki vəziyyətlərinə qaytarıb yerini rahatladı... xəyallandı:

- Bildiyin kimi, erməni qoca dığası məni yataqxananın həyətində qarşıladı, qollarını açıb arıq çiyinlərimi özünə sıxdı, əzizini görmüş kimi dedi:

- Ara, ay mart, hardasan?

- Hay, salam, nə olub belə sevincəksən? - soruşdum.

- Ara, Qriqori köməyin olsun.

- Qriqori sənin cəzanı versin.

- Ara, elə demə, beş dəfə rektorun köməkçisi zəng edib, sənin gəlib-gəlmədiyini soruşub, axırda cavab verməkdən bezib çıxdım həyətə... hardaydın?

- Rektorluq niyə mənimlə maraqlanır ki?

- Ara, zarapat eləmə, guya bilmirsən? Səni nazir rektora tapşırıb...

- Nə barədə? Niyə?

- De, Qriqori canı heç nə bilmirəm?

- Ağsaqqalsan, Qriqori kimdir ki, mən onun canına and içim?

- Bizim Allahımız, bizim peyğəmbərimizdir.

- Mən onu dələduz sayıram, babalarınız eradan əvvəl bir çox dinləri qəbul ediblər, bu Qriqori dediyin fırıldaq isə 301-ci ildə provaslava yaxın xristianlığı qəbul edib, özünə tərəfdarlar toplayıb, sonra da monopolist xaçpərəstliyinə üstünlük verib, deməyim odur ki, sən nahaq onu ermənilərin Allahı, peyğəmbəri sayırsan, Allahın görünməz şilləsindən qorx, - öz ürəyimdə Allaha yalvardım ki, bu qocanın qan təzyiqini qaldırsın, onsuz da hərdən təzyiqinin oynamasından şikayət edir.

- Ara, ay mart... Moskvada bizim haqqımızda nə çox söz öyrənmisən... gedək kabinetə, eşidən olar, - deyə qolumdan yapışıb yataqxananın girişinə dartdı.

- Eşidən qoy eşitsin, əməlli-başlı heç diliniz də yoxdur...

- Ara, ara, səsi qidris!

- Üç söz dedin, ancaq biri ermənicədir! hər dildən bir söz oğurlamısınız, əsasən də türk dillərindən... xəbərin var, Vanqa deyib ki, bu yaxınlarda Eçmiədzin şəhəri Allahsızlar şəhəri kimi yerlə-yeksan olacaq, onun, yəni bütün ermənilərin patriarx-katalikosu da çox dərinliyə düşəcək...

- Ara, ağzını surqucla...

- Sən də Qriqorinin adını çəkmə.

- Yaxşı, yaxşı, Qriqori canı, daha onun adını çəkməyəcəyəm, - kabinetini açıb içəri girdi, elə bil səndələdi, kreslosuna yayıldı, əsnədi, - bilirsən, də, bu kabinet mənimdir, - gəyirib dedi.

- Bilirəm.

- Toçnı belə bir kabinet - otaq da ikinci mərtəbədə sənə hazırlatmışam.

- Kim xahiş edib ki?

- Ara, xahiş yox ee, məncə, yumruğu stola vurub tələb ediblər... bax, burda olan şərait toçnı sənə ayrılmış otaqda da var.

- Televizor, radio, soyuducu da var?

- Yox...

- Olmasa, qəbul etməyəcəyəm.

- Ara... müvəqqəti döz, aldıraram.

- Bir gün vaxt verirəm, televizor, radio, soyuducu olmasa, yumruq bu dazlaşmış başına dəyəcək.

- Ara, qapı açıqdır, yavaş danış, - erməni törəməsi yenidən əsnədi, gəyirdi, rəngi qızardı.

"Allahım, bunun bir tədbirini gör", özlüyümdə yenə Allaha yalvardım, - götür bu açarları, otağınındır, - əlini ağzına apardı, sanki daxili üfunətini ovcuna püləyib iylədi, sifətini turşutdu, - de, Qriqori canı, kimin adamısan? - soruşdu, otağın açarını götürdüm, mən də sual verdim:

- Yuxarı mərtəbələrə qədər bütün otaqların hamısında belə şəarit var?

- Ha... ha... ara, ha...

- Deməli, onların da çirkabı bura, sənin başına axır?

- Ara... ha... mənim yox, çirkab borusuna.

- Dedim bəs sənin başına axır.

- Ara... elə bir şey bir il bundan qabaq olmuşdu... tualetin suyu başıma tappıldamışdı... remont elətdirdim... demədin kimin adamısan?

- İndiyə kimi bilmirsən?

- Yox...

- Allahın adamıyam... nə olub, rəngin niyə qızarıb?

- Başım fırlanır... ara, elə hamı Allahın adamıdır da.

- Mənim Allahım, Qriqoriyə inananların Allahı deyil... hətta... indi mən öz Allahımdan xahiş edəcəyəm ki, Məhəmməd peyğəmbərə (s.ə.s.) vəyh etsin ki, o sənin Qriqorinə üç şillə vursun, Qriqori də o üç şilləni sənə ötürsün, yəni səni şilləsin...

- Elə niyə? Mən də kimisə şilləməliyəm?

- Yox... sən heç kimi şilləməməlisən... nə oldu, yıxılma, - cəhd etdim ki, onu kreslodan yıxılmağa qoymayım, fikrimdən daşından.... doğrudan da dığanın başı kreslosunun arxasında divara dəydi, sanki huşunu itirdi, başı pillələrdən sürüşən kimi divarı tıqqıldadatıqqıldada döşəməyə çökdü... tibb məntəqəsinin həkimini çağırdım, doğrudan da qan təzyiqi yüksək idi, iynə vurdular, on-on beş dəqiqədən sonra özünə gəldi... gülümsəyib dedim, - mənim Allahımın gücünü gördün, duydun?

- Ara, sənə də, Allahına da qurban olum, de, bir də belə zarapat etməsin.

- Mənim Allahım zarafat etmədi, siz çox, o tək, vaxtı olmurdu səni cəzalandırsın, bu gün sənin, yüngül də olsa, cəzalanmalı günün idi...

- Sənin Allahın niyə məni sillələdi, təzyiqimi qaldırdı?

- Ona görə ki, yadındadır, səkkiz il bundan qabaq mən əsgərlikdən gəlmişdim, mənə gecələməyə yer vermədin, həyətdə, skameykada yatdım, düzünü de, bir gecəliyə də olsa çarpayı verə bilərdin?

- Bir neçə gecəliyinə də, xırda-xuruşa yatacaq verərdim.

- Bu, bir qəbahət, ikincisi, Allah onun, köhnə rektorun canına dəyməsin, məni laborant vəzifəsinə təyin edəndə sən zibilxananı mənə yaşamağa verdin... düzünü de, ayrı, təmiz, aspirantlara verilən otaqlardan birini verə bilərdin?

- Verə bilərdim, amma sənin itə atmağa quruşun da yox idi, işləyib özünü güclə dolandırırdın.

- Bu ikinci qəbahət... Moskvadan qayıtmışdım, beş il bu yataqxanada yaşadığıma, belə deyək, universitetin keçmiş işçisi kimi mənə sığınacaq verə bilərdin?

- Sözsüz...

- Hələ bir soruşursan niyə mənim Allahım səni şillələdi? Bu qəbahətlərinə görə... Özü də yenə təkrar edirəm, Allahın vəyhi ilə Məhəmməd peyğəmbər dələduz Qriqorini sillələdi, o da səni... bunu bil və yadında saxla, mən kim olsam da insanam, özü də bir çoxlarından insaflıyam... məndən qorx və ehtiyatlan.

- Sən Moskvada, kilsələrdə olmusan, orada nə isə öyrənmisən?

- Yox... mən sadəcə olaraq Allahımla istədiyim vaxt təmasda olur, dərdləşirəm.

- Qorxulu adama oxşayırsan, Moskva səni dəyişib.

- Mən sənin səkkiz il əvvəl tanıdığın Allahverənəm, bir az savadım, bir az da dünyagörüşüm artıb, havaya çıx ki, özünü bir az da yaxşı hiss edəsən... mən də yuxarı çıxıb otağı yoxlayıb, aşağı düşəcəyəm, - deyib təlsik komendantın kabinetindən çıxdım. Belə yerdə deyiblər: "Ermənininin qocalığı köpəyə, müsəlmanın qocalığı isə ipəyə dönər". Doğrudan da otaqda hər şərait vardı, işıqlı pəncərəsi yataqxana həyətindən bağa açılırdı... yatacağı yoxlayıb qapını bağladım, nədənsə qapının bağlı olub-olmamasını yoxladım, uzaqlaşanda yaşlı xadimə ilə rastlaşdım, salamlaşdım, dedi:

- Yaxşı elədin dinsizi, Allahsızı sözlə də olsa şillələdin.

- Söhbətimizə qulaq asırdın?

- Hə, keçirdim, səsin tanış gəldi, ayaq saxladım... bir söz soruşum, bu Qriqori deyilən, doğrudan ermənilərin peyğəmbəri deyil?

- Ay xala, özləri kimi fırıldağın, dələduzun biri olub, guya ermənilərə xüsusi din yaradıb... özlərinin nə dilləri var, nə də dinləri... hər ikisini müxtəlif xalqlardan oğurlayıblar.

- Allah bəlalarını versin.

- Amin... xala, mənə verilən otağı kim yığışdıracaq?

- Bilmirəm, bu gün mən səliqəyə salmışam.

- Al açarın birini, heç kimə də vermə, elə özün otaqda səliqə-səhman yaradarsan, - açarın birini ona verdim.

- Amma o dinsizə de, de ki, bilsin.

- O mənlikdir, gedim şeylərimi gətirim, - deyə aşağı tələsdim. Yataqxananın həyətində skameykada fikirli oturmuş komendanta yaxınlaşdım, - bir azdan qayıdacağam, - elə-belə dedim.

- Ara, mən fikirləşdim ki, sənə iyirmi, iyirmi iki yaşlı gözəl bir axçı gətirim.

- Neynirəm ki?

- Neyləyəcəksən, çox müsəlman minib çapıb, sən də ol biri.

- Axçı... atdır ki? Şəhərdə onu, maşınların əlindən minib çapmaq olmaz, - istədim zarafatla olsa da komendantı dolayım.

- Ara, axçı qız, qadın deməkdir.

- Belə de... bəs mən tələbə olanda, laborant işləyəndə niyə təklif etmirdin?

- Ara, pulun vardı ki, özünü güclə dolandırırdın?

- Elə indi də pulum yoxdur.

- Bilirəm, onu da bilirəm ki, nazirlikdə sənə böyük vəzifə, özü də pullu vəzifə veriblər, o vəzifə ilə bir yox, bir neçə axçi minib çaparsan, bizə də xoş olar, vəzifəndən bəhrələnərik... millətimiz də axçimizlə fəxr edər...

- Yox, yox, gətirmə, mənim Allahım başqa millətin, əsasən də özlərini yalandan xaçlayan qadınlarla ünsiyyət yaratmağı ona asi olmaq kimi qiymətləndirir, onun cəzasından qorxuram, şərini məndən uzaq elə... bir də ki...

- Ara, ay mart, Moskvada da oxumusan, elə bil sovremenni deyilsən, mən sənə üç axçi gətirərəm, hələlik birini seç, apar üç-beş məscidə, Quranın altından keçir olsun müsəlman.

- Sizlərə inanmıram... minib-çapılmaq xatirinə yalandan Qurana da and içərlər.

- Ara, sən prav, amma bil, Qurana and içən bizim axçi ruhən erməni, cismən müsəlman olur, bunu vaxtilə Qriqori deyib, yəni bizim axçilərimiz hansı dini qəbul etsələr, yenə də ruhən erməni olaraq qalırlar, siz kişilərə nə lazımdır, can, cana... o da bizdə...

- İzahın uzun olsa da, gəl belə danışaq, mənə axçi lazım deyil... özü də müxtəlif kişilər tərəfindən minilib çapılmış...

- Ara, pulunu ver, on iki, on dörd yaşlı, ağzından süd iyi gələnlərdən gətirim.

- Sözümü kəsdin, demək istəyirdim ki, sənin keçmiçdə də tələbələrə axçi satdığını bilirdim, bu işlə indi də məşğulsan, bilsəm, səndən rəsmi orqanlara şikayət edəcəyəm ki, sən, erməni törəməsi bu yaşında da tələbə yataqxanasını erməni qəhbəxanasına çevirmisən, eşitdin? - deyə iri addımlarla ondan uzaqlaşdım, saat altı qatarını yola salmağa hələ vaxt vardı, tələsmədən aşağı, dəmiryol vağzalına doğru addımladım...

- Dön hamama, paltarını götür, - Allahverənin daxili məni onu xəyalından ayırdı.

- Düz deyirsən, hamamdan paltarımı götürüm, hesablaşım, gedim saxlama kamerasına, kostyumu soyunum, gündəlik geyindiyim şalvarı, köynəyi geyinim, hamballığımı edim...

- Sənin də fikrin bəyənilsədir... razılaşdığımız kimi də et, - daxili mən səmimiyyətlə dedi.

- Paltarlarımı dəyişib perrona çıxdım, xalatı geyinib arabanı taksi meydanına tərəf itələdim, maşınlara baxan kişiyə arabanı verib:

- Sən müştəri tap, mənə işarə elə, qoca qadının yanında olacağam, - deyib uzaqlaşdım, qadının yanında oturdum, - ana, axşamın xeyir, - xoş əhvalla dedim.

- Aqibətin xeyir, oğul, vallah, dünən axşamdan elə sənin haqqında fikirləşirəm, biz yaşlılar alimləri tarixən Allahın vergili insanları saymışıq... sən də mənim oğlum, köç mənim mənzilimə, elə kommunal xərclərimi verərsən bəs edər...

- Ana, sağ ol... mənə, - elə bil dilimi bağladılar, sən, mənim daxili mənim mənə pıçıldadın ki, iş verilməsini hələ heç kimə demə, sabahı gözlə, axı, biz hələ yuxudayıq, - hə, mənə söz verdilər ki, bir-iki günə iş də, sığınacaq da verəcəklər.

- Allah eləsin, işdir əgər iş tapa bilməsən, ana sözüm sözdür, köç yanıma.

- Gedim müştərini yola salım qayıdıram, - maşınlara baxanın işarəsini görüb ona tərəf qaçdım… Müştərini yola salıb, qatarın tərpənməsinə vaxt olduğundan ikinci dəfə müştərinin arxasınca maşınların meydanına tələsdim, arabanı maşınlara baxana verib qadına yaxınlaşdım, - hə, ana, sabah Allah qoysa məni sevindirərlər... ana, bağışla, gündə neçə rubl toplaya bilirsən?

- Nə deyim, ay oğul... on, on beş rubl, bəzən də qəpik-quruş...

- Bu gün üçün, mən sənə ana kimi xeyirduana görə, nəzir əvəzi on rubl verərəm, get evə, mən də sevinim ki, sən ananın xeyir-duası sabah mənə kömək olacaq, - maşına baxan arabaya müştərinin çamadanlarını yüklədiyini görüb, - indi qayıdıram, - deyib iki pillə aşağı düşüb, ona yaxınlaşdım... İkinci müştərini də yola verib xalatı soyundum, arabanı yerinə qoyub ayaqyoluna tələsdim, yuyunub qurulandım və tələsmədən perrona qayıtdım.

- Amma deyim də, - Allahverənin daxili məni sözünə fasilə verdi, - düz fikirləşmisən, o anaya nəzir ver... onun xeyir-duası məncə, yüz rubl dəyərində qiymətlidir.

- Unutma, bu xeyirxahlığı mənə sən pıçıldadın.

- Sən mən, mən sən, fərqi var? İkimiz birik... çay içmək istəmirsən? - daxili mən soruşdu.

- Ananı yola salım, içərik, - deyə qadına yaxınlaşdım, cibimdən on rublu çıxarıb ona uzatdım, - al, halallıqla verirəm, - dedim.